# Musiqi ilə yaşayanlar



**Mən, bu şəxsi gəncliyimdən tanıyırdım. Mədəniyyət Nazirliyində işləyəndə üzündəki təbəssümdən onun musiqiçi olduğunu hiss etmişdim. Bir neçə gündən sonra onun, doğrudan da virtuoz musiqiçi olduğunu bildim. Hansı mövzudan söhbət gedirdisə o, bu mövzunu musiqi ilə bağlayırdı. Bütün bu keyfiyyətlər sonradan tanınmış musiqiçi olacağından xəbər verirdi. Ömrünün 65 ilinin çoxunu musiqiyə həsr edən bu musiqiçi-alim indi respublikamızın tanınmışlarındandır.**

Söhbət sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar incəsənət xadimi, milli konservatoriyanın professoru və Bəstəkarlar İttifaqının üzvü Akif Quliyevdən gedir. Onun həyatı ilə tanış olarkən hiss edirsən ki, bir günü də musiqisiz olmamalıdır.

A.Quliyev musiqi həyatına 1961-ci ildə Sumqayıtdakı 1 nömrəli musiqi məktəbinin tar sinfindən başlamışdır. 1968-ci ildə sevimli sənətinə Bülbül adına orta ixtisas Musiqi məktəbində, görkəmli tarzən Əhsən Dadaşovun sinfində davam etdirmişdir. Təhsilini davam etdirmək üçün 1973-cü ildə Ü.Hacıbıyov adına Azərbaycan Dövlət Konservatoriyasının musiqi tarixi və nəzəriyyəsi fakültəsinə daxil olmuş və 1978-ci ildə bu təhsil ocağını 3 ixtisası üzrə müəllim, musiqişünas və musiqi tənqidçisi kimi bitirmişdir. Hələ tələbəlik illərində A.Quliyev burada tələbə elmi cəmiyyətin sədri olmuş, elmi konfranslarda, elmi cəmiyyətin geniş iclaslarında, simpoziumlarda musiqi problemləri ilə əlaqədar tutarlı faktlarla maraqlı çıxış etmiş, musiqişünas alimlərin diqqətini cəlb etmişdir. Naxçıvan musiqi texnikumunda əmək fəaliyyətinə başlayan Akif müəllim 1981-2006-cı illərdə əmək fəaliyyətini Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunda davam etdirmişdir. Burada işləyərkən "Azərbaycan xalq musiqisinin antologiyası" çoxcildliyinin hazırlanmasında müstəsna xidməti olmuşdur.

O, "Azərbaycan muğamlarının musiqi dramaturgiyasında kontrastlıq prinsipləri" mövzusunda dissertasiya müdafiə edərək sənətşünaslıq elmlər namizədi elmi dərəcəsi almışdır. Bir dərslik, bir monoqrafiya, iki dərs vəsaiti, 100-dən artıq elmi məqalənin müəllifi olan Akif müəllim, eyni zamanda, aşıq yaradıcılığına, onun inkişafına da daim böyük diqqət yetirmişdir.

Belə ki, o, "saz məktəbi", "Aşıq musiqisinin tarixi və nəzəri problemləri haqqında", "Koroğlu operasında aşıq musiqisindən istifadə xüsusiyyətləri", "Səid Rüstəmovun həyat və yaradıcılığı", "Muğamın musiqi dramaturgiyasına dair", "Muğam və din" adlı elmi məqalələri respublikamızın dövri mətbuatında dərc olmuş televiziya ekranlarında təbliğ edilmişdir. O, eyni zamanda, elmi fəaliyyəti ilə yanaşı, pedaqoji fəaliyyətində də daim uğurlar əldə etmişdir.

Akif müəllimin istər Milli Konservatoriyanın prorektoru işləyərkən, istərsə də hazırda Musiqinin tarixi və nəzəriyyəsi kafedrasının müdiri və professoru kimi bu tanınmış ali təhsil ocağının əsas fəaliyyətində yaxından iştirak edir. O, eyni zamanda Musiqi Akademiyasının müdafiə şurasının da üzvüdür.

Akif müəllim musiqinin bir çox sahələrinə həsr olunmuş elmi yazıları ilə musiqi aləmində böyük nailiyyətlər əldə etmişdir. Qara Qarayevin "Yeddi gözəl" baletində muğamın rolu", " Aşıq sənəti tədqiqinə yeni töhfə", "Qara Qarayevin fortepiano əsərlərinin milli xüsusiyyətləri", "XX əsr musiqi tarixi", "XX əsrin musiqi nəzəriyyəsi fənnindən magistr dərəcəsi alanlar üçün musiqi əsərlərinin təhlili" bakalavr dərəcəsi alanlar üçün "Musiqi teatrının dramaturgiyası" "Musiqi metodologiyası" və ən nəhayət "Azərbaycan Respublikasının mədəniyyət və incəsənətinin inkişafında Heydər Əliyev mərhələsi" və sair yazıları nəinki, respublikamızda, eyni zamanda respublikamızdan kənarda da böyük diqqət mərkəzindədir. Azərbaycan musiqinin başqa ölkələrdə, qeyri-millətlər arasında təbliğində, xarici ölkələrdən gəlmiş tələbələr arasında yüksək səviyyədə tədris olunmasında Akif müəllimin böyük əməyi vardır.

Bütün bu və digər uğurların nəticəsidir ki, Azərbaycan Milli Konservatoriyasının şöhrəti, məzunlarının dünya musiqi aləminə verdiyi töhfələr dövlətimiz və hökumətimiz tərəfindən daim yüskək qiymətləndirilir.

**Zabit CAVADOV,**
**"Respublika".**

Respublika.-2019.-26 sentyabr.- S.7